# Böyük Qayıdışın yeni ünvanı





***Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərə budəfəki səfəri də mühüm məqamlarla yadda qaldı. Dövlət başçısının Ağdərənin Aşağı Oratağ, Çıldıran, Heyvalı və Çapar kəndlərinin sakinləri ilə görüşü, səsləndirilən fikirlər və verilən bəyanatlar işğaldan azad edilmiş ərazilərə sülh və əmin-amanlığın, inkişafın və həyatın qayıtdığının göstəricisidir.***

## Gündəm

■ **Millət vəkili Məlahət İbrahimqızının sözlərinə görə, Prezident İlham Əliyevin yanvarın 13-də Tərtər və Ağdərə rayonlarına səfəri bir daha göstərdi ki, 44 günlük Vətən müharibəsindən sonra dövlət başçısı işğaldan azad olunmuş ərazilərdə davamlı və dayanıqlı inkişaf siyasəti həyata keçirərək, böyük quruculuq işlərinə də özü şəxsən nəzarət edir.**

Həyata keçirilən bu siyasət uzunmüddətli və çoxşaxəli dövlət strategiyasına əsaslanır. Bu səfər həm təhlükəsizlik, həm iqtisadiyyat, həm də sosial bərpa baxımından bir-birini tamamlayan ardıcıl qərarların real nəticələrini nümayiş etdirdi". M.İbrahimqızı qeyd edib ki, Tərtər rayonuna səfəri proqramı çərçivəsində Prezidentin Elektromexanika Zavodunun yenidənqurmadan sonra istifadəyə verilməsi mərasimində iştirakı mühüm əhəmiyyətə malikdir.

"Bölgədə belə bir mühüm sənaye obyektinin istifadəyə verilməsi, əslində, Azərbaycan müdafiə sənayesinin keyfiyyətcə yeni mərhələyə keçdiyinin göstəricisidir. Müasir yüksəkdəqiqlikli texnologiyaların tətbiqi yerli mütəxəssislərin bilik və bacarıqları hesabına reallaşdırılması diqqətçəkən əsas məqamlardandır. Bu bir gerçəklikdir ki, ölkəmiz təkcə istehsalçı deyil, həm də texnoloji müstəqilliyə iddialı olan bir dövlətdir.

Ayrı-ayrı çıxışlarında dövlətimizin başçısı dəfələrlə qeyd edib ki, Azərbaycan bu gün 20-yə yaxın ölkəyə hərbi təyinatlı məhsullar ixrac edir və 1,4 milyard manatlıq istehsal həcmi müdafiə sənayesinin artıq iqtisadi dəyər yaradan sektora çevrilmişdir. Sözsüz ki, dövlətimizin bu sahəyə göstərdiyi xüsusi diqqət milli təhlükəsizliklə iqtisadi dayanıqlılığın paralel inkişaf etdiyini ortaya qoyur", - deputat deyib. **M.İbrahimqızı deyib ki, İlham Əliyevin səfəri uzun illər işğal altında olan Ağdərənin, artıq savaş və cəbhə bölgəsindən gündən-günə gözəlləşən yaşayış məkanına çevrildiyinin ifadəsi kimi** diqqət çəkdi: "İnsanların ən yüksək yaşayış mühitində yaşamaları üçün bütün infrastrukt, xüsusilə də yol, su, qaz, elektrik, rabitə, sosial infrastruktur, məşğulluq imkanları və ictimai məkanlar qurulur.

Yenidən qurulmuş və abadlaşdırılmış bu kəndlərdə keçmiş məcburi köçkünlərin mərhələli şəkildə geri qayıtması Azərbaycanın "Böyük Qayıdış" proqramının, artıq praktiki müstəvidə uğurla icra edildiyini təsdiqləyir. Ənənəvi olaraq, Prezidentimizin sakinlərlə birbaşa ünsiyyəti isə dövlət-vətəndaş münasibətlərində sosial etimadın əsas dayaqlardan biri olduğunu sübut edir. Yaşıl enerji strategiyası Qarabağın yeni iqtisadi pasportudur.

Ağdərənin Qozlukörpü kəndində Su Elektrik Stansiyasının açılışı Azərbaycanın enerji siyasətində strateji dönüş nöqtələrindən biridir. Qarabağın və Şərqi Zəngəzurun "yaşıl enerji zonası" elan edilməsi, artıq real layihələrlə təsdiqlənir. Tərtərçay üzərində qurulan SES-lər təkcə enerji istehsalı deyil, eyni zamanda, ekoloji tarazlığın qorunması və qaz istehlakının azaldılması baxımından mühüm əhəmiyyət daşıyır. Bildiyimiz kimi, Azərbaycanın işğaldan azad edilmiş əraziləri köhnə model üzrə deyil, gələcəyin iqtisadi və ekoloji standartlarına uyğun qurulur.

Məlumdur ki, Canyataq kəndində yerləşən "Dəmirli" Filiz Emalı Kompleksi işğal dövründə qanunsuz olaraq erməni vandalları tərəfindən talan edilirdi. Bu gün fəxrlə deməliyik ki, təbii sərvətlərin dövlət nəzarətində, beynəlxalq standartlara uyğun şəkildə istifadəyə verildiyinin şahidiyik. Bu layihə təkcə dağ-mədən sənayesinin bərpası deyil, eyni zamanda, iqtisadi ədalətin bərpasıdır. Bu layihənin gerçəkləşməsi prosesində minə yaxın daimi iş yerinin yaradılması, özəl investisiyaların cəlbi və ixrac potensialının genişlənməsi qeyri-neft sektorunun gücləndirilməsi istiqamətində atılan məqsədyönlü, sistemli və ardıcıl atılan addımların nəticəsidir.

Səfəri izləyərkən şahid olduq ki, Ağdərə şəhərinin artıq müasir şəhərsalma prinsiplərinə uyğun olaraq, Baş planı hazırlanıb. Burada yaşayış, sənaye, logistika, aqroturizm və sosial zonaların balanslı şəkildə inkişafı nəzərdə tutulur. Eyni zamanda, hərbi qulluqçular üçün yaşayış binalarının istifadəyə verilməsi və Xüsusi Əməliyyat Mərkəzinin təməlinin qoyulması onu göstərir ki, təhlükəsizliklə mülki inkişaf paralel və uzlaşdırılmış şəkildə aparılır", - deputat deyib.

M.İbrahimqızı bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin Ağdərə və Tərtər səfəri Azərbaycanın möhtəşəm Zəfərdən sonra təkcə dağıntılar aradan qaldırılmır, həm də yeni sosial-iqtisadi və təhlükəsizlik arxitekturası qurur.

"Bu siyasətin mərkəzində isə güclü dövlət, milli maraqlar, sosial ədalət və gələcək nəsillər üçün, hər bir vətəndaş üçün dayanıqlı inkişaf dayanır".

■ **Milli Məclisin deputatı Jalə Əliyeva Hafta.az-a bildirib: "Prezident İlham Əliyevin Ağdərə və Tərtər rayonlarına səfəri işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa, yenidənqurma və məskunlaşma siyasətinin ardıcıl və sistemli xarakter daşıdığını aydın şəkildə ortaya qoyur.** Dövlət başçısının bölgədə aparılan genişmiqyaslı infrastruktur layihələri, yaşayış məhəllələri, sosial obyektlər və iqtisadi təyinatlı qurumlarla yerində tanış olması Böyük Qayıdış proqramının real nəticələr verdiyini nümayiş etdirir".

Deputat eyni zamanda qeyd edib ki, bu səfər bir daha təsdiqləyir ki, azad edilmiş ərazilərin dirçəldilməsi təkcə fiziki infrastrukturun bərpası ilə məhdudlaşmır, paralel şəkildə sosial rifahın yüksəldilməsi, məşğulluğun təmin olunması və dayanıqlı iqtisadi inkişaf məqsədləri də prioritet təşkil edir. "Ağdərə və Tərtər rayonlarında yol-nəqliyyat şəbəkəsinin yenilənməsi, enerji və su təchizatının müasir standartlara uyğun qurulması, eləcə də təhsil, səhiyyə və digər sosial xidmətlərin əlçatanlılığının artırılması əhalinin uzunmüddətli və təhlükəsiz məskunlaşmasına zəmin yaradır.

Prezidentin səfəri çərçivəsində görülən işlər regionun iqtisadi potensialının mərhələli şəkildə reallaşdırıldığını da göstərir. Kənd təsərrüfatının inkişafı, sənaye və xidmət sahələrinin formalaşdırılması, yeni iş yerlərinin açılması bölgənin sosial-iqtisadi canlanmasını sürətləndirir və geri qayıdan əhali üçün layiqli həyat şəraiti yaradır. Eyni zamanda, bu yanaşma ölkənin ümumi iqtisadi inkişaf strategiyası ilə uzlaşaraq regional balansın möhkəmləndirilməsinə xidmət edir.

Ümumilikdə, Prezident İlham Əliyevin Ağdərə və Tərtərə səfəri işğaldan azad olunmuş ərazilərdə dövlət siyasətinin məqsədyönlü, planlı və davamlı şəkildə həyata keçirildiyini, bərpa və məskunlaşma prosesinin artıq keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu göstərən mühüm siyasi və ictimai hadisə kimi qiymətləndirilir".

*✍ Tahirə Qafarlı*